AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ:İQTİSADİYYAT**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri i.f.d. dos. E. Q. Məmmədov**

**tarix protokol**

# « Müasir dövrün sosial problemləri»" FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

## FƏNN HAQQINDA MƏLUMAT

**Fənnin кodu:** -
**Fənnin növü:** seçmə
**Tədris ili:** 2024/2025
**Fənnin tədris semestri:** yaz
**Fənnin tədris forması:** əyani
**Tədris dili:** Azərbaycan
**Fakültə:** İqtisadiyyat və idarəetmə
**Qrup:** -
**Tədris yükü:** 60 (30/30)
**Kredit sayı:** 4 kredit
**Kafedra:** «İctimai idarəetmə və sosial innovasiyalar»

## II. MÜƏLLİM HAQQINDA MƏLUMAT

**Fənni tədris edən müəllim: i.e.d.,Həsənova Mətanət Samik qızı**
**E-mail ünvanı:** matanat.hasanova.f@mail.ru
**İş telefonu:**

**Tələbələr üçün qəbul vaxtları:** I, II günlər 14.00-17.00-dək

## FƏNNİN TƏSVİRİ

İqtisadiyyat və kadrların idarə edilməsi sahəsində mütəxəssislərin peşə hazırlığında "Müasir dövrün sosial problemləri " kursu xüsusi yer tutur.

Kurs tətbiqi nəzəriyyə və empirik təhlilə əsaslanır. Kurs nəzəriyyə ilə dövlət siyasəti arasındakı əlaqəni vurğulayır. Müzakirə olunan mövzular aşağıdakılardır: keçmişdən bu günə qədər doğum, ölüm, əhalinin qocalması və gözlənilən ömür uzunluğu sahəsində dövlət siyasəti, nikahlar, ailə quruluşu, iqtisadi kateqoriya kimi məşğulluq, struktur, formalar məşğulluq və məşğulluğun gender aspektləri, işsizlik, urbanizasiya, miqrasiya, məşğulluğun idarə edilməsi və əmək bazarının dövlət tənzimlənməsi.

## KURSUN ƏSAS MƏQSƏDİ

**Bu fənn tələbələrə Müasir dövrün sosial problemləri haqqında ümumi məlumat, onun predmeti, səviyyələri, eyni zamanda müxtəlif fəaliyyət sahələrində - uşaqlar, ahıllar, ailələr, əlilliyi olan insanlar və digər hədəf qrupları ilə sosial iş qaydaları və prosesini əhatə edir.**

Kursun ideyası ondan ibarətdir ki, insan münasibətlərində problem həlli miqyasında: şəxsi yardım, məsləhət və dəstək ilə insanların həyatındakı çətinliklərin öhdəsindən gəlmələrinə kömək edəcək xidmət modelləri vardır. Rifahı yaxşılaşdırmaq üçün fərdin azadlığı miqyasında isə, terapevtik yardım yolu ilə müraciətçilərin gücləndirilməsi işləri yer alır.

## ÖYRƏNİLMƏNİN NƏTİCƏLƏRİ:

Tələbələr tərəfindən fənnin mənimsənilməsinin əsas vəzifələrinə aşağıdakılar daxildir:

- müasir dünyada baş verən poblemlər meyilləri və amilləri haqqında anlayışın formalaşdırılması;
- əhali haqqında məlumat mənbələrinin təhlili vərdişlərinə, göstəricilərin hesablanması üsullarına yiyələnmək;
- müasir dövrün sosial problemlərinin təhlili üçün ümumi elmi əsaslandırma və modelləşdirmə üsullarını tətbiq etmək bacarığının formalaşdırılması;

- tələbələrin şəxsi potensialının, onların sosial məsuliyyətli davranışa həvəsinin inkişafı və aktuallaşdırılması, onlarda fəal vətəndaşlıq və peşəkar mövqenin formalaşdırılması.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

## FƏNN Müasir dövrün sosial problemləri

Mövzu 1. Sosial problem anlayışının mahiyyəti
Mövzu 2.Müasir dövrün qlobal sosial problemləri.
Mövzu 3. Beynəlxalq miqrasiya və qaçqınlar problemi.
Mövzu 4.Müasir dövrsə yoxsulluq və gəlir bərabərsizliyi
Mövzu 5. Əhalinin məşğulluğu və işsizlik problemi
Mövzu 6. Əhalinin təhsil problemləri
Mövzu 7. Əhalinin sağlamlıq problemləri
Mövzu 8. Əhalinin mənzil təminatı problemləri
Mövzu 9. Gənclərin sosial problemləri
Mövzu 10. Müasir cəmiyyətdə sosial problemləri
Mövzu 11. Müasir cəmiyyətdə ailənin sosial problemləri
Mövzu 12. Yaşlıların rifah problemləri
Mövzu 13. Gender problemi və Azərbaycanda gender siyasəti
Mövzu 14. Ekoloji təhlükəsizlik və ətraf mühitin mühafizəsi problemləri.
Mövzu 15. Sosial-demoqrafik problemlər

## KORREKVİZİTLƏR:

## VIII. FƏNNİN TƏDRİSİ METODİKASI

Kursda aşağıdakı təlim üsul və formalarından istifadə olunur:

- Mühazirələr
- Seminarlarda problemlərin həlli və müzakirəsi
- Kompyuter laboratoriyalarında müstəqil iş (Excel və STATA proqramlarında ev tapşırıqlarının yerinə yetirilməsi, iqtisadi məlumatlarla işləmək, internetdə tədqiqatların aparılması)
- Ədəbiyyatla müstəqil iş

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

| Mövzunun adı | Bu mövzunun öyrənilməsi nəticəsində tələbə *bilməlidir* | Bu mövzunun öyrənilməsi nəticəsində tələbə *bacarmalıdır* |
|---|---|---|
| **1. Sosial problem anlayışının mahiyyəti xüsusiyyətləri və yaranma səbəbləri** | - Cəmiyyətdə olan sosial problemlər haqqında;<br>- Sosial yardımın mahiyyəti və əsas məqsədini;<br>- Sosial yardımın xüsusiyyətlərini;<br>- Həyat şəraitini rahat təmin edə bilməyən, əmək qabiliyyətindən məhrum olmuş insanlara və digər sosial zəif kateqoriyalara dövlətin sosial yardım təqdimatını;<br>- Sosial problemlərin yaranma səbəblərini;<br>- Sosial problemlərin səviyyələri və xüsusiyyətlərini. | - Sosial problemləri təhlil etməyi;<br>- Sosial müdafiə və sosial təminat anlayışlarını fərqləndirməyi;<br>- Yoxsulluğa dair nəzəriyyələri şərh etməyi. |
| **2. Müasir dövrün qlobal sosial problemləri** | - Qlobal problemlərin meyarlarının təhlil istiqamətlərini;<br>- Qloballaşmanın güclənməsinə təsir edən amilləri;<br>- Qlobal yoxsulluq, qlobal sosial-demoqrafik məsələlər və onların həll yolları haqqında;<br>- Cəmiyyətdə işsizlik, aclıq, səfalət, savadsızlıq və s. təhlükələr haqqında;<br>- Əhalinin sürətlə artması və onların maddi və mənəvi tələbatının təmin edilməsi, demoqrafik partlayışın tənzimlənməsi məsələlərini;<br>- Ətraf mühitin, havanın, suyun, atmosferin çirkləndirilməsinin qarşısının alınması yollarını. | - Sosial xidmət seçimini təhlil etməyi və proqnozlaşdırmağı;<br>- Bəşəriyyətin ərzaq və sənaye məhsullarına, enerji mənbələrinə daim artan tələbatını təhlil etməyi;<br>- Elmi-texniki inqilabın mənfi nəticələrinin aradan qaldırılması zəruriliyini əsaslandırmağı. |
| **3. Beynəlxalq miqrasiya və qaçqınlar problemi** | - Beynəlxalq miqrasiyanın mahiyyətini; | - Miqrasiya nəzəriyyələrini təhlil etməyi; |

| | | |
|---|---|---|
| | - Beynəlxalq miqrasiyanın səbəblərini;<br>- Beynəlxalq miqrasiyanın müxtəlif meyarlar üzrə təsnifatını;<br>- Qaçqın və sığınacaq axtaran anlayışlarının izahını;<br>- Miqrasiyanın ümumi nəzəriyyələrini;<br>- Beynəlxalq miqrasiyanın tarixi haqqında;<br>- Azərbaycanda məcburi köçkün və qaçqın problemini şərh etməyi. | - Beynəlxalq miqrasiyanın tarixi dövrlər üzrə amillərini əsaslandırmağı. |
| **4. Sosial problem kimi yoxsulluq** | - Yoxsulluğun ortaya çıxması ilə bağlı əsas yanaşmaları;<br>- Fərdi problem kimi yoxsulluğun mahiyyətini;<br>- Fərdi yoxsulluğa sövq edən səciyyəvi xüsusiyyətlər haqqında;<br>- Yoxsulluq tələsi və onun formalaşması haqqında;<br>- Yoxsulluğun formalarını;<br>- Əsas ehtiyaclar və həyat keyfiyyəti haqqında;<br>- Yaşayış səviyyəsi göstəricilərini;<br>- Yoxsulluq probleminin aradan qaldırılması istiqamətlərini;<br>- Dünya təcrübəsində yoxsulluğun qiymətləndirilməsi metodlarını;<br>- Əsas insan dəyərləri və bacarıqları haqqında;<br>- Yoxsulluqla əlaqəli riskləri. | - Maslounun əsas ehtiyaclar siyahısının təhlil etməyi;<br>- Yoxsulluğun qadınlaşmasının əsas səbəbləri təhlil etməyi;<br>- Macionis və Piummer tərəfindən yoxsulluq tələlərinə dair irəli sürülən fərqli düşüncələri şərh etməyi. |
| **5. Əhalinin məşğulluğu və işsizlik problemi** | - Məşğulluğun mahiyyəti, strukturu, formaları və səviyyəsi haqqında;<br>- Məşğulluğa mane olan səbəbləri;<br>- Əhali məşğulluğunun əhəmiyyəti və onun təmin edilməsi üzrə dövlət siyasətini;<br>- Məşğulluğun dövlət tənzimlənməsi üsullarını;<br>- Məşğulluqla bağlı anlayışları;<br>- Məşğulluq dərəcələrinin müəyyən edilməsini; | - Məşğulluqla bağlı statistik göstəriciləri təhlil etməyi;<br>- Cəmiyyətdə məşğul olan və istehsalda faktiki qiymətləndirilən şəxslərin məşğulluq növlərini fərqləndirməyi;<br>**-** İşsizliyin səbəbləri və sosial nəticələrini təhlil etməyi; |

| | | |
|---|---|---|
| | - İşsizliyin mahiyyəti, növləri və səviyyəsinin ölçülməsi qaydasını;<br>- İşsizliklə mübarizədə aktiv və passiv məşğulluq siyasətini. | - İşsizlik səviyyəsinin azaldılması məsələlərini təhlil etməyi. |
| **6. Əhalinin təhsil problemləri** | - Təhsilin mahiyyəti və rolunu;<br>- Təhsilin inkişafının qanunvericilik bazasını;<br>- Təhsilin əsas prinsiplərini;<br>- Təhsilin əhalinin məşğulluğuna təsiri imkanlarını;<br>- Azərbaycan təhsilinin qarşısında duran vəzifələri;<br>- Distant təhsilin mahiyyəti və təşkili xüsusiyyətlərini;<br>- Təhsildə inklüzivlik və onun təmin edilməsi yollarını. | - Azərbaycanda təhsilin inkişaf tendensiyasını şərh etməyi;<br>- Distant təhsilalma formasının Azərbaycanda səmərəli tətbiqi ilə bağlı tədbirləri əsaslandırmağı;<br>- Təhsil sahəsində optimal qərarları tapmağı. |
| **7. Əhalinin sağlamlıq problemləri** | - Sağlamlıq anlayışının mahiyyətini;<br>- İnsan sağlamlığına təsir edən amilləri;<br>- Xəstəliklərin mahiyyətini müxtəlif əlamətlərə görə təsnifləşdirməyi;<br>- Əhalinin sağlamlığının qorunmasının əsas prinsiplərini;<br>- İctimai səhiyyənin insanların həyatında və sağlamlığında rolunu;<br>- Qlobal səviyyədə sağlamlıq amilinin insan həyatında rolunu. | - Sosial sağlamlığın insan həyatında vacibliyini əsaslandırmağı;<br>- Səhiyyə xidmətlərinin keyfiyyətini təyin etməyi. |
| **8. Əhalinin mənzil təminatı problemləri** | - Əhalinin mənzil təminatı ilə bağlı problemləri;<br>- Mənzil sektorunun inkişafı üçün əsas hədəfləri;<br>- Mənzil probleminin vacib aspektlərini;<br>- Mənzil sektorunda islahatın istiqamətlərini;<br>- Mənzillə təminat səviyyəsini kəmiyyətcə ölçmək qaydalarını;<br>- Əhalinin mənzil probleminin artma səbəblərini. | - Yüksək mənzil sıxlığı əmsalını hesablamağı;<br>- Azərbaycanda mənzil təminatının yaxşılaşdırılmasında ipoteka kreditlərinin əhəmiyyətini əsaslandırmağı;<br>- Mənzil təminatı ilə bağlı statistik göstəriciləri təhlil etməyi. |
| **9. Gənclərin sosial problemləri** | - Gənclərin sosial problemləri haqqında;<br>- Gənclərin sosial problemlərinin yaranma xüsusiyyətlərini; | - Gənclərin sosial problemləri ilə bağlı yanaşmaları şərh etməyi; |

| | | |
|---|---|---|
| | - Narkomaniyanın mahiyyəti və sosial nəticələrini;<br>- Narkomaniyanın yayılması və ona qarşı mübarizə üsullarını;<br>- Alkoqolizmin insan həyatına təsirlərini;<br>- Alkoqolizmin qlobal səviyyədə xarakteristikasını. | - Narkomaniya və alkoqolizmin sosial nəticələrini təhlil etməyi. |
| **10. Müasir cəmiyyətdə əlillərin sosial problemləri** | - Əlilliyin mahiyyətini və təyin olunması qaydasını;<br>- Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsinin təşkili mexanizmlərini;<br>- Əlillərin əlillik dərəcələri haqqında;<br>- Əlillərə sosial xidmətlərin qanunvericilik bazasını;<br>- Əlillərin daha çox ehtiyac duyduğu qayğı və xidmət növlərini;<br>- Əlillərin ən əsas problemlərini;<br>- Əlillərin sosial təcrid problemi və onun aradan qaldırılması yollarını. | - Əlillərin sosial problemlərini şərh etməyi;<br>- Əlillərin əqli və psixoloji problemlərini təhlil etməyi. |
| **11. Müasir cəmiyyətdə ailənin sosial problemləri** | - Ailənin mahiyyəti və funksiyaları haqqında;<br>- Müasir cəmiyyətdə ailənin əsas sosial problemlərini və səbəblərini;<br>- Uşağın tərk edilməsinin əsas səbəblərini;<br>- Qadınlara qarşı zorakılığın əsas səbəblərini;<br>- Ailə münasibətlərinin növləri haqqında;<br>- Boşanmanın mənfi nəticələri haqqında;<br>- Uşaq baxımsızlığı və istismarının mənfi psixoloji və sosial təsirləri haqqında. | - Ailəni vacib sosial qurum kimi təhlil etməyi;<br>- Boşanmanın uşaqlara təsirini proqnozlaşdırmağı. |
| **12. Yaşlıların rifah problemləri** | - Yaşlılıq və yaşlanmanın mahiyyətini;<br>- Müasir cəmiyyətdə yaşlıların rifah problemlərinin yaranma səbəblərini; | - Yaşlıların rifahı sahəsində sosial işçilərin funksiyalarını təhlil etməyi; |

| | | |
|---|---|---|
| | - Sağlam yaşlanmanın təmin edilməsi məsələləri haqqında;<br>- Gerontoloji sosial işin mahiyyətini;<br>- Yaşlı insanlara göstərilən xidmətlər haqqında;<br>- Yaşlıların pensiya və müavinat təminatı məsələlərini. | - Pensiya təminatında xarici ölkələrin təcrübəsini müqayisəli təhlil etməyi. |
| **13. Gender bərabərsizliyi və Azərbaycanda gender problemi** | - Gender anlayışı, gender bərabərsizliyinin mahiyyətini;<br>- Gender probleminə dair müxtəlif yanaşmaları;<br>- Evlilikdə gender rolları haqqında;<br>- Qadın və kişi münasibətlərində gender bərabərsizliyi<br>- Gender bərabərsizliyini azaltmaq üçün sosial müdafiənin vacib inkişaf istiqamətlərini;<br>- Regionlar üzrə gender bərabərsizliyinin xarakteristikasını;<br>- Gender bərabərliyinin iqtisadiyyatda rolunu və inkişafa müsbət təsirlərini;<br>- Azərbaycanda gender bərabərsizliyinin aradan qaldırılmasının hüquqi əsaslarını. | - Gender bərabərsizliyinin qadınların təhsil və iş həyatına təsirlərini təhlil etməyi;<br>- Azərbaycanda gender bərabərsizliyinin səbəblərini əsaslandırmağı. |
| **14. Ekoloji təhlükəsizlik və ətraf mühitin mühafizəsi problemləri** | - Ekoloji təhlükəsizliyin mahiyyətini;<br>- Ekoloji problemlərin yaranma səbəblərini;<br>- Ətraf mühiti çirkləndirən əsas faktorları;<br>- Dayanıqlı İnkişaf Məqsədlərinin havanın çirklənməsinə dair hədəflərini;<br>- Əhali artımının səbəb olduğu problemləri;<br>- Dünyada bioloji müxtəlifliyin qorunmasının qanunvericilik və institusional çərçivəsi haqqında;<br>- Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının əsas məqsədini. | - Ətraf mühütün qorunması, ekoloji təhlükələrin aradan qaldırılması məsələlərini şərh etməyi;<br>- Əsas ekoloji problemləri ayrı-ayrılıqda təhlil təhlil etməyi;<br>- Suların çirklənməsinin qarşısının alınması məqsədi ilə həyata keçirilən tədbirləri şərh etməyi. |

| | | |
|---|---|---|
| **15. Dünyada sosial-demoqrafik problemlər** | - Sosial-demoqrafik problemlərin mahiyyətini;<br>- Əhalinin təkrar istehsalı və qocalması prosesinin izahını;<br>- Əhalinin təbii artımı ilə bağlı dünya ölkələrində həyata keçirilən demoqrafik siyasətləri;<br>- Dünyada gəlir bərabərsizliyi məsələsini;<br>- Sosial-demoqrafik problemlərin öyrənilməsinin əhəmiyyətini;<br>- İrqi və etnik bərabərsizliyə səbəb olan tarixi və sistemli amilləri;<br>- İqlim dəyişikliyinin sosial və iqtisadi nəticələri haqqında;<br>- Avropada demoqrafik tendensiyaları. | - Qlobal və milli səviyyədə davamlı insan inkişafının iqtisadi, sosial və demoqrafik inkişafla qarşılıqlı əlaqəsini təhlil etməyi;<br>- Təhsil səviyyəsinin sağlamlığa və sosial rifaha təsirini əsaslandırmağı;<br>- Əhalinin qocalmasının mənfi nəticələrini proqnozlaşdırmağı. |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;

3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ *(Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100

bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu

qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir

təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

## TƏCRÜBƏ

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.

**TƏRTİB ETDI:**  **i.e.d.,Həsənova M.S**